# Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin rəsmi emblemi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin rəsmi emblemi haqqında Əsasnamə” təsdiq edilsin (əlavə olunur).
2. “Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin rəsmi embleminin təsviri” təsdiq edilsin (əlavə olunur).

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 22 oktyabr 2024-cü il

Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 22 oktyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir

**Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin rəsmi emblemi haqqında**

**ƏSASNAMƏ**

1. Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin (bundan sonra — Agentlik) rəsmi emblemi Agentliyin rəmzidir. Rəsmi emblem Agentliyin hər bir əməkdaşına Agentliyin fəaliyyət istiqamətlərinə uyğun məsələlər üzrə öz vəzifələrini vicdanla və layiqincə yerinə yetirmək borcunu xatırladır.

2. Agentliyin rəsmi emblemi Agentlik əməkdaşlarının, həmçinin silah, xüsusi vasitə, texnika və digər əmlakın Agentliyə mənsubiyyətini bildirən nişandır.

3. Agentliyin rəsmi emblemi Agentliyin hərbi qulluqçularının geyim formasında və fərqlənmə nişanlarında yerləşdirilir. Agentliyin rəsmi emblemi onun blanklarında, inzibati binalarının adı göstərilən lövhələrində yerləşdirilə bilər.

4. Agentliyin rəsmi embleminin təsvirindən istifadəyə aşağıdakı hallarda yol verilir:

4.1. Agentliyin çap məhsullarında, kino, video, fotomateriallarında;

4.2. Agentliyin sifarişi ilə hazırlanan reklam-informasiya məhsullarında (bukletlər, təqvimlər, nişanlar, vımpellər, saatlar, medalyonlar, dəftərxana ləvazimatları, suvenirlər və digər məhsullar).

Azərbaycan Respublikası
Prezidentinin 2024-cü il 22 oktyabr
tarixli Fərmanı ilə təsdiq edilmişdir

**Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin rəsmi embleminin**

**TƏSVİRİ**

Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin rəsmi emblemi kənarı boyunca enli qızılı haşiyəli qara dairə formasındadır. Dairənin kənarı üzrə enli qızılı haşiyədən sonra ensiz qızılı haşiyə, qövs boyunca qızılı hərflərlə yuxarıda "AZƏRBAYCAN RESPUBLİKASI", aşağıda "STRATEJİ OBYEKTLƏRİN MÜHAFİZƏSİ DÖVLƏT AGENTLİYİ" sözləri yazılmışdır. "AZƏRBAYCAN" sözündən əvvəl və "RESPUBLİKASI" sözündən sonra qızılı rəngli səkkizguşəli ulduz təsvir edilmişdir.

Dairənin mərkəzində üzərində 12 ədəd düymə təsvir edilmiş və kənarları boyu tünd qızılı kantla haşiyələnmiş növbəti qızılı dairənin daxilində Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri verilmişdir. Dövlət Gerbinin arxasında kəsişmə görüntüsü yaradan, dəstəkləri və iti ucları görünən qızılı rəngli iki ədəd qılınc yerləşir (rəsmi emblemin şəkli əlavə edilir).

**“Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin rəsmi embleminin təsviri”nə əlavə**

